# Moskva səfəri Azərbaycana mühüm siyasi və iqtisadi dividendlər gətirəcək

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Moskva səfəri kifayət qədər uğurlu keçdi. İstər Rusiya Prezidenti Vladimir Putinlə, istər hökumət başçısı Dmitri Medvedevlə, istərsə də digər görüşlərində Mehriban xanımın çox səmimi və mehribanlıqla qarşılandığını gördük. Birinci vitse-prezident özünün əsl Şərq qadınına layiq ədəb-ərkanı ilə hər bir görüşdə hörmət və rəğbət qazandı. Həmsöhbətləri onunla söhbət zamanı Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını, ölkəmizin etibarlı tərəfdaş olduğunu bildirirdilər. Bu, həm də Mehriban xanımın Azərbaycana qarşı böyük hörmət və ehtiram qazandırdığının bariz ifadəsi idi. Məhz bu hörmət və ehtiramın nəticəsi idi ki, Rusiya Prezidenti onu "Dostluq" ordeni ilə təltif etdi.**



Azərbaycanın Birinci vitse-prezidenti rəsmi görüşlərdən əlavə, Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulmuş "Azərbaycan" pavilyonunun açılış mərasimində iştirak etdi. Eyni zamanda, səfərinin yekunları ilə bağlı TASS informasiya agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana TASS, "Rossiyskaya qazeta" və "Rossiya-24" telekanalı üçün müsahibə verdi.

Mehriban Əliyeva "Azərbaycan" pavilyonunun açılışındakı çıxışında bildirdi ki, Azərbaycan və Rusiyanı çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət telləri bağlayır. Rusiya və Azərbaycan prezidentlərinin siyasi iradəsi, birgə səyləri sayəsində bu gün iki ölkə əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Dövlət başçılarının sıx dostluq münasibətləri, qarşılıqlı səfərləri, müntəzəm görüşləri həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin inkişafına xüsusi dinamika verir.

Mehriban xanım dedi: "Sevindirici haldır ki, bu gün ölkələrimiz arasında çoxcəhətli tərəfdaşlıq praktiki olaraq bütün sahələri əhatə edir. Möhkəm ikitərəfli müqavilə-hüquqi baza yaradılıb, 200-dən çox sənəd imzalanıb. Hökumətlərarası və parlamentlərarası işçi qruplar münasibətin inkişafına sanballı töhfə verir. Ticari əlaqələr bizim əməkdaşlığımızın əsas istiqamətlərindən biridir. Rusiya Azərbaycanın əsas tərəfdaşlarından biridir və bizim qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Artmaqda olan əmtəə dövriyyəsinin inkişafı və şaxələndirilməsi üzrə kompleks tədbirlər həyata keçirilib. Azərbaycan xaricdə özünün ilk ticarət nümayəndəliyini Rusiya Federasiyasında açıb. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları yaradılıb və uğurla fəaliyyət göstərir. Bizim istehsalçıların müxtəlif regionlara ixrac missiyaları təşkil edilir".

Təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın da Rusiya rəhbərliyi ilə dostluq münasibətlərinin olması Azərbaycana yalnız siyasi və iqtisadi dividentlər gətirə bilər. Biz niyə gözləməliyik ki, başqa ölkələr Rusiya ilə daha sıx münasibətlər yarada bilsinlər? Biz özümüz rəsmi Moskva ilə dost, strateji tərəfdaş olmalıyıq ki, ölkəmiz və insanlarımız bu münasibətlərdən faydalansınlar. Bu mənada, Mehriban xanımın səfərini çox uğurlu hesab edirəm.

***Məhərrəm ZÜLFÜQARLI,***
***tarix üzrə fəlsəfə doktoru***

Xalq qəzeti.- 2019.- 28 noyabr. S. 2.